# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN İQTİSADİ FİKİRLƏRİ HAQQINDA



Mirzə Fətəli Axundzadə 1812-ci ildə Şəki (keçmiş Nuxa) şəhərində anadan olmuşdur. O, Yaxın Şərqdə və Türk dünyasında dramaturgiyanın və yeni tipli nəsrin banisi, əlifba islahatçısı, Azərbaycan ədəbiyyatında realizm prinsiplərinin və maarifçi-demokratik ideologiyanın əsasını qoymuş, görkəmli liberalist və ictimai-siyasi xadim kimi tanınımışdır. Ensiklopedik biliyə və fitri istedada malik olan M.F.Axundzadənin öz həyat və yaradıcılığı ilə xalqımızın ictimai-siyasi şüurunun bütün sahələri, eləcə də iqtisadi şüurunun formalaşmasında əvəzsiz xidmətləri olmuşdur.

O dövrdəki Azərbaycanla bağlı ilk olaraq, onu qeyd etməliyik ki, artıq M.F.Axundzadənin bütöv olan vətəni Azərbaycanın şimal ərazisi Rusiya tərəfin-dən işğal olunmağa parçalanmağa doğru gedirdi. Təbii ki, bu proses böyük bir millətin Arazdan şimalda və cənubda qalan hissələrinin tədricən, fərqli sosial-iqti-sadi və mədəni inkişaf yoluna qədəm qoyması prosesini şərtləndirdi. Belə ki, hər iki Azərbaycan klassik feodal üsul-idarəçiliyinin və feodal təsərrüfatının hakim olduğu həmin o dövrün həm ictimai-siyasi, həm də iqtisadi baxımdan geri qalmış məmləkətləri sırasında idi. Lakin buna baxmayaraq, gənc Mirzə Fətəli bir neçə xarici dili, xüsusən rus dilini mükəmməl bildiyinə görə ölkənin Şimali Rusiya və rus dili xətti ilə gələn Qərb üsul-idarəsi, fikir və düşüncə axınlarından, mütəmadi olaraq, xəbər tuta bilirdi. Bəs, həmin dövrdə ictimai-siyasi və iqtisadi baxımdan dünyada hansı proseslər gedirdi? Təbii ki, Qərbi Avropa istisna olmaqla, dünyanın böyük bir hissəsinin sosial-iqtisadi durumu Azərbaycandan o qədər də fərqlənmirdi. Qərbi Avropa isə elə həmin dövrdə də həm zehni-intellektual, həm də sosial-iqtisadi həyat səviyyəsinə görə fövqəladə inkişaf trendinə daxil olmuşdu. **Belə ki, həmin dövrdə "Ronesans hərəkatı", "Sənaye inqilabı", "Maarifçilik cərəyanları", "Fransa inqilabı" və s. kimi hadisə və proseslərin nəticəsi olaraq, artıq Qərbi Avropada sxolastik düşüncə tərzindən elmi-realist düşüncə tərzinə, aqrar-feodal cəmiyyətindən kapitalist-sənaye cəmiyyətinə və nəhayət avtoritar idarəetmə sistemindən demokratik idarəetmə sisteminə keçid istiqamətində proseslər sürətlənmişdi.** Heç şübhəsiz ki, bütün bu proseslər öz zəmanəsinin böyük ziyalısı kimi M.F.Axundzadənin ictimi-siyasi və xüsusilə də iqtisadi düşüncə tərzinə və ədəbi yaradıcılığına müsbət təsir göstərməyə bilməzdi.

**Məlum olduğu kimi, 1776-cı ildə ingilis iqtisadçısı Adam Smitin "Xalqların sərvəti" adlı əsərini nəşr etdirməsi və bu əsrin dəsti xəttini davam etdirən digər əsərlərin ortaya çıxması artıq Qərbi Avropada yeni iqtisadi-ictimai formasiya kimi, kapitalizmin liberal dəyərlərə əsaslanan elmi-nəzəri bazasının da forma-laşdırılması prosesinin başlanğıcını qoymuşdu. Biz bu xəttin Mirzə Fətəlinin əsərlərində yer alan iqtisadi fikirlərində də özünü açıq şəkildə büruzə verdiyinin şahidi oluruq.**

M.F.Axundzadənin iqtisadi fikirlərini kompleks təhlil etdikdə həm də onu gö-rürük ki, dövlət idarəçiliyinin məzmun və formaca dəyişikliklərə uğra-ması məsələləri onun yaradıcılığının əsas leytmotivini təşkil edir. O dövrün ictimai-siyasi və iqtisadi həyatının bu sahələrində dərin islahatların aparılması zəruriliyini dərk edən Mirzə Fətəlinin bu istiqamətdəki fikirlərinin həmin dövr üçün əsas tənqid hədəflərindən biri də o dövrdə mövcud olan avtoritar və totalitar feodal üsul-idarəsi idi. Bu isə müəllifdən çox böyük cəsarət və risk tələb edirdi. Bir maarifçi və liberalist kimi M.F.Axundzadə öz əsərlərində feodal üsul-idarəsi və qayda-qanunlarına, zülmə, özbaşınalığa, ədalətsizlik və qanunsuzluğa qarşı çıxmış, nəinki təkcə öz doğma Azərbaycan xalqının, hətta ümumən Şərq xalqlarının milli intibahı, siyasi, iqtisadi və mədəni tərəqqisi, azad və xoşbəxt həyata qovuşmaları naminə, bu problemlərin həllinin vacibliyini göstərmişdir. O, bir tərəfdən, alovlu bir vətənsevər vətəndaş kimi məmləkətinin, millətinin geriliyinə acıyır, digər tərəfdən isə, bütün müsəlman millətlərinin bu baxımdan çağdaş Qərbi Avropa tərəqqi karvanına qoşulmalarının ən optimal yolları haqqında düşünürdü.

M.F.Axundzadə cəmiyyətin idarə edilməsi sahəsində, müasir anlamda desək, demokratik və hüquqi dövlət arzusunda idi. Asiya xalqlarını "nadanlıq və qəflət yuxusundan oyatmaq" və iqtisadi-mədəni tərəqqi yoluna çıxartmaq məqsədilə o, 1863-1865-ci illərdə məşhur "Kəmalüddövlə məktubları" adlı fəlsəfi əsərini yazmışdır. 1860-cı illərin ortalarından başlayaraq, rus inqilabçı demokratlarının və Qərbi Avropa maarifçilərinin qabaqcıl ideyalarının qüvvətli təsiri altında dahi mütəfəkkir zəhmətkeş kütlələr üçün xalis maarifpərvər və müdrik hökmdarın insanpərvərliyinə inamı haqqında özünün əvvəlki "ideyasını" rədd edir və onun bu ideyaları getdikcə daha prinsipial xarakter daşımağa başlayır. Belə ki, əgər müəllif "Aldanmış kəvakib" əsərinin meydana çıxdığı dövrdə, zülm edənlərlə zülm olunanlar arasında "barışığa" və "sazişə" gəlməyi mümkün hesab edirdisə, "Üç məktub" əsərində o, artıq bu məsələyə münasibətini xeyli kəskinləşdirməklə daha müdrik və düzgün mövqe tutmuşdur. O, 1871-ci ildə Mirzə Yusif Xana məktubunda yazırdı: **"Zülmü yox etmək üçün iki vasitə vardır: "ya zülmkar zülm etməkdən əl çəkməli," və yaxud da, "məzlumlar zülmə dözməyərək, özləri onun özünü məhv etməlidirlər".** Ağıl söyləyir ki, zülmü yox etmək üçün başqa yollar yoxdur. Min illərlə mütəfəkkirlər, alimlər, şairlər zülmü və ədalətsizliyi yox etmək üçün zülmkarlara nəsihət və məsləhət verməyi kifayət hesab edirdilər. Lakin təcrübə göstərdi ki, belə cəhdlər faydasızdır və bu yolla yer üzündə zülmü məhv etmək olmaz. Deməli, zülmü yox etmək üçün "zalıma" nəsihət vermək lazım deyil, əksinə "məzluma" demək lazımdır ki, "say", "qüvvə" və "bacarıq"da zülmkardan qat-qat üstün olduğun halda, nə üçün sən bu zülmə, acizanə surətdə, dözürsən? Oyan və zülmü alt-üst et".

M.F.Axundzadə o dövrün dövlət idarəçiliyini yalnız ümumi şəkildə deyil, eyni zamanda, konkret istiqamətlər üzrə də cəsarətlə tənqid edirdi. Hətta Cə-lil Məmmədquluzadə kimi cəsarətli söz sahibi olan bir yazıçı belə, bu haqda deyib ki, **"Axundzadənin əsərlərində toxunduğu bütün məsələlərdən qan iyi gəlirdi". O, çar üsul-idarəsinin yüksək rütbəli məmuru olmasına baxmayaraq, çar hakim-lərinin nöqsanlarına da göz yummamış, onların bürokratizmini, rüşvətxorluğunu və ədalətsizliyini açıq şəkildə tənqid etmişdir. Məsələn, "Hacı Qara" əsərində qaçaqmal keçirmək barədə bəylərlə söhbət apararkən, Hacı Qara çar bürokratik üsul-idarəsi, yerli çar məmurları haqqında deyirdi: "Rus adı gələndə (burada çar məmurları və idarəçiliyi nəzərdə tutulur) bağrım yarılır. Onların qılınc-tüfəngi məni o qədər qorxutmur nəinki, silisti, apar-gətiri canıma vəlvələ salır".**

Əslində müəllif burada digər bir həqiqətin də üstünü açırdı: **"Qaçaqmalçılıq daha çox gömrükxanalardakı çox ağır, həm də bürokratik mexanizmdən və rüşvətxorluqdan doğur".**

"Aldanmış kəvakib" əsərində də müəllif heç nədən çəkinmədən göstərirdi ki, "bilavasitə şahın, eləcə də onun nazirlərinin təqsiri üzündən İran dövləti və xal-qı dəhşətli bir vəziyyətə düşmüşdür: ticarət və əkinçilik süqut etmiş, şəhər və kəndlər viran qalmış, körpülər və karvansaralar uçulub tökülmüş, ölkə ağır iqtisadi-siyasi böhrana uğramışdır. Hər yerdə zalım, nadan, ədalətsiz, rüşvətxor dövlət məmurları və feodal hakimləri xalqa olmazın zülm edir, onu soyub-talayır, başına min bir oyun açırlar".

M.F.Axundzadə nəinki o dövrün Şərq idarəetmə sistemini tənqid etmiş, eyni zamanda, özünün "ideal dövlət və dövlət başçısı" modelini də təqdim etmiş-dir. "Aldanmış kəvakib" povestindəki Yusif Sərrac obrazı məhz dediklərimi-zə bariz nümunədir.

Müəllif bu obrazla öz mütərəqqi görüşlərini nümayiş etdirmiş, İranı tərəqqi yoluna yönəltmək, xalqın güzəranını yaxşılaşdırmaq üçün konkret təkliflər də irəli sürmüşdür. Yusif Sərrac məhz elmi, əqli, qabaqcıl mədəniyyəti ilə seçilən, iqtisadi-mədəni tərəqqini təmsil edən, maarifçi bir hökmdar surəti idi. Bəs, Yusif Sərracın idarəçiliyi hansı prinsiplərə əsaslanırdı? O, ilk olaraq öz ətrafına bir qrup həqiqətpərəst, ağıllı, savadlı, sağlam düşüncəli adamları toplayıb, onlara söyləyir ki, kəndxudadan tutmuş padşahadək bütün hakimlər "əhli-zələmə" və yolkəsəndirlər. Onlar ölkə və millətə heç bir fayda vermir, həmişə öz şəxsi mənafe-ləri haqqında düşünür, biçarə xalqı müxtəlif cərimə və vergilər vasitəsi ilə soyub talayır, öz iş və fəaliyyətlərində heç bir qanun və qaydaya riayət etmirlər. Bir təsadüf nəticəsində İran şahı olan Yusif Sərrac ölkədə geniş ictimai-siyasi və iqtisadi islahat yönümlü tədbirlər həyata keçirməyə başlayır. Onun islahatları nəticəsində İranın ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verir. Bir sözlə, həmin dövr ərzində "İran üçün əyyami-firuzluq, "əyyami-səadət" və "iqbal" baş verir. Yusif şahın fəaliyyətinə nəzər saldıqda, açıq şəkildə görünür ki, onun apardığı bu islahatlar obyektiv olaraq, İranın orta əsr feodal ziddiyyətləri və ictimai yaralardan xilas edilib, bunun əvəzində kapitalist inkişaf yoluna düşməsi ilə nəticələnir.

**(ardı var)**

**HƏSƏN İSRAFİLOV,**
**iqtisad elmləri doktoru,**
**Azərbaycan Respublikasının**
**"Əməkdar müəllimi",**
**Kooperasiyanın İnkişafına**
**Dəstək İctimai Birliyinin sədri**